*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 154-161* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.1.154*

# Azərbaycan ədəbiyyatında assosiativ poemanın funksiyası və ifadə üsulları

**Aytac Nəsirzadə**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ismayilliaytac94@gmail.com

**Annotasiya.** Məqalədə lirik poemanın yeni tiplərindən olan assosiativ poema tədqiqata cəlb olunub. Poema janrının keçdiyi inkişaf yoluna nəzər salsaq, aydın olur ki, ictimai-siyasi hadisələrdən irəli gələrək 60-70-ci illərdə janrda mövzu darlığı aradan qalxır, yeni mövzulara müraciət edilir. Həmçinin poema janrının formasında da dəyişikliklər müşahidə olunur. Dünyanın lirik cəhətdən ümumiləşdirilmiş mənzərəsi poemalarda canlandırılır. Poema janrının polifonik imkanları genişlənir, lirik səpkili poemalar üstünlük qazanır. Əvvəlki tarixi dövrlərdə istifadə edilən lirik poemanın formaları – poema-müraciət, poema-monoloq, poema-dialoq, assosiativ poema aktuallıq qazanır. Lirik poemanın şairlər tərəfindən müraciət olunan tiplərindən biri assosiativ poemadır. Məqalədə assosiativ poemanın spesifik xüsusiyyətlərinin müəyyən olunması üçün Fikrət Sadığın “Ağ cığır”, Musa Yaqubun “Hər məktubdan bir sətir”, Fikrət Qocanın “Ulduzlu düşüncələr”, “Düşündüklərimdən mənzərələr, Rəsul Rzanın “Min dörd yüz on səkkiz” əsərləri araşdırmaya cəlb olunur. Fikrət Sadığın “Ağ cığır” poemasında müharibə illərinin faciəli günlərindən fraqmentlər lirik qəhrəmanın xatirələrində assosiya doğurur. Musa Yaqubun “Hər məktubdan bir sətir” poemasında müharibə faciələri haqqında şair düşüncələri qəhrəmanın məktubları vasitəsi ilə ifadə olunur. “Ulduzlu düşüncələr”, “Düşündüklərimdən mənzərələr” poemasında isə Fikrət Qoca dünyada, eləcə də vətənində baş verən hadisələri, zaman, insan haqqında ziddiyyətli fikirlərini assosiyasiyalarla canlandırır. “Min dörd yüz on səkkiz” poemasında müharibənin dəhşətli fraqmentləri, lövhələri, detallarını sistemləşdirib bir araya gətirməklə şair baş verən hadisələr haqqında fikirlərini ifadə edir. Haqqında danışdığımız əsərlərə əsasən müəyyən olunur ki, bu poema tipində şairlər məkan və zaman etibarı ilə fərqlənən hadisələrin şəkillərinin əlaqələndirilməsi metoduna müraciət edirlər. Araşdırma zamanı belə nəticəyə gəlirik ki, anımlar, assosiasiyalar, montaj üslundan istifadə bu tip poemalarda süjetin inkişafını şərtləndirən əsas ədəbi-bədii vasitə rolunu oynayır.
**Açar sözlər:** lirik poema, assosiasiya, anım, düşüncə, lirik qəhrəman

**Məqalə tarixçəsi:** göndərilib – 04.07.2025; qəbul edilib – 14.07.2025

# The function and methods of expression of the associative poem in Azerbaijani literature

**Aytaj Nasirzade**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: ismayilliaytac94@gmail.com

**Abstract.** The article focuses on the associative poem, one of the new types of lyrical poems. If we look at the development path of the poem genre, it becomes clear that, due to socio-political events, in the 60s-70s, the narrowness of the genre's subject matter is eliminated, and new topics are

addressed. Changes are also observed in the form of the poem genre. The lyrically generalized view of the world is revived in poems. The polyphonic possibilities of the poem genre are expanding, and lyrical poems are gaining dominance. The forms of the lyrical poem used in previous historical periods – poem-appeal, poem-monologue, poem-dialogue, associative poem are gaining relevance. One of the types of lyrical poems addressed by poets is the associative poem. In order to determine the specific characteristics of the associative poem, the following works are included in the article “White Path” by Fikret Sadig, “A Single Line from Every Letter” by Musa Yagub, “Starry Thoughts”, “Views from My Thoughts” by Fikret Goja, “One Thousand Four Hundred and Eighteen” by Rasul Rza. In Fikret Sadig’s poem “White Path” fragments from the tragic days of the war years evoke associations in the memories of the lyrical hero. In Musa Yagub’s poem “A Single Line from Every Letter” the poet’s thoughts about the tragedies of war are expressed through the hero’s letters. In the poems “Starry Thoughts” and “Views from My Thoughts” Fikret Goja revives the events taking place in the world, as well as in his homeland, his contradictory ideas about time and man through associations. In the poem “One Thousand Four Hundred and Eighteen” the poet expresses his thoughts about the events taking place by systematizing and bringing together the terrible fragments, panels and details of the war. Based on the works, it is determined that in this type of poem, poets resort to the method of connecting images of events that differ in space and time. During the research, we come to the conclusion that memories, associations, and the use of montage play the role of the main literary and artistic means that determine the development of the plot in this type of poems.
**Keywords:** lyric poem, association, memory, thought, lyrical hero

**Article history:** received – 04.07.2025; accepted − 14.07.2025

## Giriş / *Introduction*

Lirik poema hadisə süjetindən və obyektiv xarakterdən məhrum olmasa da, bu tip poemada süjet lirik qəhrəmanın düşüncə və təcrübələrinin inkişafına əsaslanır. XX əsr Azərbaycan poeziyasında lirik başlanğıcın önə keçməsi lirik poemanın poetik strukturuna təsir edir və onun poema-monoloq, poema-dialoq, poema-müraciət, assosiativ poema kimi tipləri formalaşır.

## Əsas hissə / *Main part*

Lirik poemanın yeni tiplərindən biri assosiativ poemadır. Onun konstruktiv komponentlərinin əlaqəsi – fərdi hadisə situasiyaları, təbiət şəkilləri, fikir və hisslərin axını emosional, assosiativ prinsipə tabedir. “Assosiasiya reallığın birbaşa əks olunması prosesində yaranan, yaddaşda saxlanılan və ya insan həyatının mədəni-tarixi təcrübəsində təsbit olunmuş ideyalarla hissiyyat obrazları arasında əlaqənin müəyyənləşdirilməsinə əsaslanan bədii ifadəliliyə və məna yaratmağa nail olmağın unikal üsuludur” [11]. Assosiasiya anlayışı antik dövr fəlsəfəsində Aristotel tərəfindən irəli sürülmüşdür. Fikirlərin assosiasiyası termini Con Lokk tərəfindən təqdim edilmişdir. İnsan ağlı haqqında təcrübə” kitabında o qeyd edir: “İdeyalarımızın bəziləri bir-biri ilə təbii əlaqəyə malikdir... Amma ideyaların başqa bir əlaqəsi də var ki, bu da tamamilə təsadüf və ya adətlə bağlıdır: özlüyündə heç bir əlaqəsi olmayan ideyalar bəzi insanların şüurunda elə birləşir ki, onları ayırmaq çox çətindir” [11].

Assosiasiyanın elmi izahını İ.P.Pavlov irəli sürmüşdür. O, assosiasiyanın bütün növlərinin əsasını müvəqqəti sinir əlaqələrinin təşkil etdiyini qeyd etmişdir. Assosiasiyalar həyatın hərtərəfli olaraq canlandırılmasına, mövzunun fəlsəfi cəhətdən dərinləşməsinə imkan yaradır. Bu tip poemanın yaranması və yayılmasının əsas səbəbi amillərin kombinasiyası nəzərə alınmaqla müəyyənləşdiril-

məlidir. İlk növbədə, vizual və ifadə sferalarının genişləndirilməsi, əlaqələndirilməsi zərurəti müəyyən bir emosional, semantik dəyişiklik, yeni bir baxışa ehtiyacdan qaynaqlanır. Bu üsuldan istifadə əsrimizin tarixi fırtınalarının şahidi və çox vaxt birbaşa iştirakçısı olan müasir insan adlanan şəxsiyyətin formalaşdığı sosial-psixoloji sferanın mürəkkəbliyi ilə şərtlənir. Müasir insan, şübhəsiz ki, düşünən, əks etdirən və fəaliyyət göstərən qəhrəmandır, onun şüurunda ictimai hadisələr, sarsıntılar qarşılıqlı əlaqədə mövcud olur. XX əsrdə baş verən hadisələrdən, İkinci Dünya müharibəsinin fəlakətlərindən irəli gələrək poetik təfəkkürün assosiativ üsulla ifadə olunması poeziyada daha çox üstünlük qazanır. Müxtəlif zaman və məkanlarda baş verən hadisələri ümumiləşdirərək düşünmək bacarığı poemaların səciyyəvi əlamətinə çevrilir. Poema janrında buna zəmin yaradan amilləri səciyyələndirən ədəbiyyatşünas Şirindil Alışanov yazır: "Müasir poemalarımızda lirikləşmə, gerçəkliyin dərkində lirik qəhrəmanın aparıcı mövqeyi, həyata yazıçı müdaxiləsinin güclənməsi, lirik-psixoloji təhlilin üstünlüyü və assosiativ düşüncə tərzi daha qabarıqdır" [1, s.158-159]. Assosiativ təfəkkür üsulu obyektlər və şəkillər arasında əlaqə yaratmaq bacarığı ilə səciyyələnir. Assosiativ təfəkkürün inkişafı üçün müxtəlif üsullar vardır. Assosiativ poemaları qruplaşdıraraq onları bir neçə istiqamətdə təsnif edə bilərik: psixoloji, semantik, simvolik. Bunların içərisində ən geniş və yayğın olan psixoloji assosiativ poemalardır. Psixoloji assosiasiyalar "insanlarla dünya arasında qarşılıqlı əlaqə aktları"nı təşkil edir [8, s.6]. Müxtəlif idrak proseslərinin, insanın dünya ilə qarşılıqlı əlaqəsinin vahid sisteminin təzahürü kimi qəbul edilir. Bu tip poemada şair oxucunu emosional vəziyyətə salmağa çalışır və bədii detallar mühüm əhəmiyyət kəsb edir. Başlanğıcda oxucu intuitiv təxminlər yolu ilə gedir və poema boyunca mətnin semantik qatları üzə çıxır. Hər bir fikir, bədii detal oxucunun düşüncələrində tamamlanaraq bütöv bir assosiasiya silsiləsi yaradır. Fikrət Sadığın "Ağ cığır" poeması da poetik fikirlərin əlaqələndirilməsi əsasında qurulmuşdur. 1943-cü ilin qışında iki əsgər, bir leytenant və cəbhəyə qaçan üç uşağın qarşılaşması zamanı yaranan təəssüratlar, istifadə edilən digər poetik detallar poema müəllifinin əsas qayəsinin ifadə olunmasına xidmət edir. Şair arzuları, istəkləri olan bu uşaqların taleyi haqqında məlumat verir. Poemanın quruluşunda, poetik montaj prosesində səhnələr ardıcıllıqla, lirik qəhrəmanın yaddaşının təmin etdiyi assosiativ əlaqələrə əsasən düzülür. S.L.Kaqanoviç qeyd edir ki, "...ədəbiyyata münasibətdə fantaziyanı, assosiativ təfəkkürü idrak prosesinə – əsasən intellektə deyil, emosiya və təxəyyülə aid olan hər şeyə bağlamaq daha effektivdir" [9, s.3]. Şair yaratdığı obrazlara fərdi şəkildə yanaşmır, onların timsalında ümumilikdə uşaqlıq illəri dava vaxtına düşən yaşıdlarının taleyini, əzablarını, müharibənin insanlara gətirdiyi fəlakətləri işıqlandırır. Assosiativ obrazlılığın vizual mahiyyəti ondan ibarətdir ki, mövzu vahid baxış bucağı altında nəzərdən keçirilir, hərtərəfli təhlil edilir, hadisələr birləşdirilir. Kiçik süjet ünsürlərinin olması müəllifə müharibənin dəhşətləri haqqında öz düşüncələrini ifadə etməsi üçün daha geniş imkanlar açır. Poemanın sonunda lirik qəhrəman acı uşaqlıq illərini xatırlayır:

*Hardadır on üç yaşım?*
*Qayıda bilsəydim o günlərə!..*
*O qarlı xatirələrə,*
*Acı xatirələrə.*
*Amma qayıtmasın o günlər...* [4, s.86]

Müharibə illərində baş verənlər lirik qəhrəmanın xatirələrində əks səda doğurur, üsyankar qəlbinin səsi eşidilir. Poemada bugünkü yetkin lirik mənlə o saf uşaqlıq xatirələri, ürəyin həyatın bütün təzahürlərinə bilavasitə reaksiya verdiyi dövrlər arasında daxili konflikt yaranır.

Semantik assosiativ poemalarda assosiasiyalar zənciri tarixlərin, hadisələrin, ardıcıllığını xatırlamağa lazım olan hər hansı bir mövzuda istifadə edilir. "Assosiasiya insan şüurunda əvvəlki və yeni yaranan ideyalar arasında əlaqədir [7, s.2]. Bu tip poemalar assosiativ semantik sahələr, mətn fraqmentləri ilə qurulur. Müəyyən bir detaldan oxucu müxtəlif assosiasiyalar ilə geniş ümumi-

ləşdirmələr aparır. Assosiasiya mümkün semantik əlaqələrin və kombinasiyaların birliyini nəzərdə tutur. Bütöv assosiativ zəncir sistemi bir hadisənin, faktın, sözün, terminin və s. yaddaşda daha yaxşı möhkəmlənməsinə imkan verir. Yaradıcı şüur asanlıqla yeni və bəzən tamamilə gözlənilməz semantik əlaqələr yaratmaq qabiliyyəti ilə xarakterizə olunur. Assosiativ düşüncə ikitərəfli bir prosesdir. Həyatın real məqamları ədəbi assosiasiyaların yaranmasına səbəb ola bilər və əksinə, bədii mətni dərk edən zaman alıcının həyat təcrübəsində çoxlu semantik körpülər və istinadlar yarana bilər. Oxucunun assosiativ fəaliyyətinin əsasını təkcə mətn, onun elementləri, quruluşu deyil, həm də müəllifin şəxsiyyəti, süjet, kompozisiyada mövcud olan ideya və obrazlar təşkil edir.

Assosiativ təfəkkür assosiasiyalardan istifadəni əks etdirən anlayışdır. Düşüncə, ideyalar arasındakı əlaqələr hisslərdən və onların beyində buraxdığı izlərdən yaranır. Müəyyən ideyalardan biri şüurda digərini oyadır və assosiasiyalar bu şəkildə yaranır. Poetik fikrin semantik asossiyasiya şəklində qurulduğu əsərlərdən biri Musa Yaqubun "Hər məktubundan bir sətir" poemasıdır. Müharibə mövzusunda yazılan poema əhvalat və kiçik süjetlərdən ibarətdir. Assosiativ obrazlılıq onun əsasında duran obyektiv təsvirlərin və hadisələrin arasında zaman əlaqələrinin subyektiv xatiratıdır. Təsvirlərdən birinin baş verməsi keçmiş təcrübədə onunla əlaqəli olan digərinin ifadəsini şərtləndirir. Poemanın bütövlüyü ayrılmaz obraz və ya mərkəzi motivlə təmin edilir. Çoxsaylı semantik assosiasiyalar və fraqmentlər mərkəzi obrazdan müxtəlif istiqamətlərdə ayrılır. Poetik düşüncə eyni vaxtda bir neçə istiqamətdə hərəkət edir. Daxili süjet qeyri-xətti hərəkət edir. Süjet müharibənin doğurduğu mənzərələr, anımlar əsasında qurulub. Assosiasiyaların köməyi ilə əsərin müəllifi özünəməxsus xəyal dünyası yaradır və oxucunu ona dəvət edir. Şair Vahabın məktublarına əsasən müharibənin dəhşətlərinin əks olunduğu lövhələri onun dilindən nəql edir, ümumi məqsədə nail olmaq üçün onları bir-biri ilə əlaqələndirir. Canlandırılan hadisələr oxucunun xatirəsində oxşar məqamları oyadır. Bütün bunlar assosiasiyalar sayəsində mümkün olur, çünki insan zehni assosiativ potensiala malikdir, hər hansı fraqmenti qəbul etdiyi anda aktivləşir və öz fikirlərini yaradır. Lövhələr, hadisələr müəllif fikirlərinin ifadəsində müharibənin mahiyyətini açır. Poemanın hissələrindəki qarşılaşdırmalar, detallar müharibə psixoloji-ruhi sarsıntılarını açıqlığı ilə göstərir, məzmunun təsir gücünü artırır:

*İndi bizim meşələr*
*Girib sarı bir dona.*
*Çoxalır adi yeldən*
*Meşələrin səs-küyü.*
*Cığırların, arxların*
*Xəzəllərdir örtüyü*
*Orda suyun üzündə*
*Üzür sarı yarpaqlar.*
*Burda suyun üzündə*
*Üzür sarı papaqlar,*
*Payız yarpaq tökümü,*
*Dava insan tökümü...* [5, s.240]

Poemada süjetin mühüm mərhələlərini təşkil edən paralelliklər əsas amilə çevrilir. Mətn açıldıqca düşüncəyə həcm, ahənglik verən və onu əhəmiyyətli dərəcədə dəyişdirən, süjeti formalaşdıran motivlər meydana çıxır. Müxtəlif lövhələr verilsə də, onlar arasında qarşılıqlı əlaqə poemanın bütövlüyünü təmin edir.

İnsanın nitqi və zehni fəaliyyəti assosiativ xarakter daşıyır. Şüurda yaranan ideya, fikir, obraz onlarla semantik cəhətdən bağlı olan başqa, yeni ideyaların, düşüncələrin və obrazların meydana çıxmasına səbəb olur. Mətnin quruluşunun assosiativ aspektdə nəzərə alınması son dərəcə vacibdir. Mətnin assosiativ quruluşu dedikdə: "subyektlərin mətnyaratma və şərhetmə fəaliyyəti prosesində

müəyyən işarələr və işarə ardıcıllıqları sistemi ilə mətndə obyektiv şəkildə stimullaşdırılan əsas birləşmə istiqamətləri arasında əlaqəni əks etdirən model" başa düşülür [10, s.112].

Fikrət Qocanın "Ulduzlu düşüncələr" və "Düşündüklərimdən mənzərələr" poemaları da semantik assosiasiya nümunələridir. "Ulduzlu düşüncələr" poemasında şairin insan, zaman, dünya haqqında fəlsəfi düşüncələri monoloq formasında qurulmuşdur. Lirik qəhrəman zaman və məkan sferasında hərəkət edir, özünü hadisələrin mərkəzinə qoyur. Bir tərəfdən XX əsrin tərəqqisindən danışan şair, digər tərəfdən isə onun nöqsanlarını vurğulayır. "Bizim dövr" başlığı altında şair XX əsr zaman axarı, insan haqqında təzadlı fikirlərini ifadə edir. O, müxtəlif zaman və məkanda baş verən hadisələr arasında assosiasiya yaradır. Mətnin dərin, gizli mənasını dərk etmək üçün əsas assosiativ təfəkkürün inkişafı, yaranan assosiativ silsilənin zənginliyi olmalıdır. Assosiativ təfəkkür nə qədər inkişaf etsə, mətnin məzmunu bir o qədər zəngin məntiqli və dərin olur. İctima-fəlsəfi ümumiləşdirmələr, assosiasiyalar şair düşüncələrinin ifadə edilməsi üçün əsas vasitəyə çevrilir. Dünyada baş verən hadisələrin səbəbkarı olaraq kainatın ən böyük həqiqəti hesab etdiyi insanı görür:

*Mat qalmışam insan ağlına,*
*insan əməlinə.*
*Kimi gül alır,*
*kimi mərmi alır əlinə.*
*Kimi boğazından çörəyi kəsir,*
*Dəyişir silaha,*
*fitva verən xəbərə.*
*Kimi boğazından*
*çörəyi kəsir.*
*Göndərir aclara,*
*döyüşdən, zəlzələdən*
*çıxmış şəhərə.*
*Hər ikisi də insandır, insan.* [3, s.117]

Poemanın mərkəzində ümumiləşdirilmiş insan obrazı dayanır. Lirik qəhrəman onun yaranışı ilə bağlı bəzi suallar ətrafında mühakimə yürüdür, əməllərini düşünməyə, xeyirxahlığa səsləyir. Şairə görə elm və texnika nə qədər inkişaf etsə də, insan mənəvi dəyərlərdən uzaqlaşmamalıdır. "İctimai və mənəvi amillərin müxtəlif qütbləri arasında poetik ekskurslar və müqayisələr poemanın daxili dramatizminin əsas meyarına çevrilir. Məzmunun ümumi mənzərəsindəki təzadlar və onun ayrı-ayrı fəsillərində təsvir olunmuş cəhətlərinə aydın münasibət gələcək nəsillər qarşısında vətəndaşlıq hisslərinin konkret ünvanını müəyyənləşdirir" [1, s.170]. Poemada müxtəlif poetik parçalar şairin ümumi məqsədində bütövləşərək, vahid fikrin ifadəsinə xidmət edir. Lirik poemanın bu tipi insanla dünya arasındakı ən dərin münasibətləri dərk etməyə imkan verir.

"Düşündüklərimdən mənzərələr" poemasında da şair dünyada, eləcə də vətənində baş verən hadisələrə münasibətini ifadə edir. Məlumdur ki, istənilən poeziya nümunəsi hər bir oxucu tərəfindən fərqli formada başa düşülür. Müəllifin ruhunda və ya şüurunda doğulan poetik nümunələrin doğurduğu assosiasiyalar oxucu tərəfindən fərqli formada qavranıla bilər. Bəzi hallarda isə canlandırılan fraqmentlər şair və oxucularda da oxşar assosiasiyaların doğmasına səbəb ola bilər.

Dünya şairin əsərində heç də monolit görünmür, o, ziddiyyətli ədəbi təsirləri, problemləri, mürəkkəb sosial və mədəni şəraiti özündə ehtiva edir. Poemada din, ictimai-fəlsəfi fikirlər, elmi-texniki tərəqqi, mənəvi dəyərlər haqqında düşüncələr cəmlənib. İlk misradan şair artıq dünyanın bir çox yerlərində – Nəcəfdə, Qafqazda, Afrikada baş verən ictimai-əxlaqi problemlərdən söz açır. Poemaya daxil edilən parçalar, detallar əsərin təsir gücünü artıraraq şairin qayəsinin açılmasına xidmət edir. Şair müxtəlif hadisələr arasında əlaqələr qurur, onları müəyyən bir ardıcıllıqla sıralayır, yəni bir assosiasiya həmişə əvvəlkindən əmələ gəlir. Poemada ənənəvi süjet yoxdur, amma daxili

süjet və ya kəsişən motivlər var. Xocalıdan qaçqın düşən, uşaqlığından məhrum olan günahsız körpə, qəfil partlayış nəticəsində həyatını itirən İsmayıl ilə bağlı lövhələrlə yer üzərindəki özbaşınalıqları göstərir:

*Zərif olmaq,*
*zəif olmaq günahdı,*
*güclər haqdı!*
*Hər güclü elə bilir ki, Allahdı.*
*Kainatda ulduzlar verib baş-başa,*
*həyəcanla izləyir*
*necə qurtaracaq*
*yer üzündəki bu tamaşa!* [2, s.69]

Poemaya daxil edilən parçalar arasında qarşılıqlı əlaqə əsərin bütövlüyünü təmin edir, süjet funksiyasını yerinə yetirir. Bədii ümumiləşdirmə yolu ilə düşüncələrini ifadə edən şair insanları dini, irqi ayrı-seçkilikdən uzaq olmağa, vətənpərvərliyə, xeyirxahlığa çağırır. Əlaqələndirilən düşündürücü məqamlar, bir qayda olaraq, əsas məqsədə tabe olur və həyata keçirilir.

Mətndə elə söz və anlayışlar olur ki, onları oxuma prosesində hər kəs öz şəxsi təcrübəsinə, dünyanı dərk etməsinə, təxəyyülünə əsasən müəyyən edir. Simvolik assosiasiyalarda açar sözlər mətnin əsas məzmununu əks etdirməyə imkan verir və əsas informasiya bazasına çıxış rolunu oynayır. Onun vasitəsi ilə oxucu əsərə münasibətini, emosional reaksiyasını ifadə edir. Simvolik assosiativ poemanın nümunələrindən biri Rəsul Rzanın "Min dörd yüz on səkkiz" poemasıdır. Əsərin adına diqqət edək, ilk növbədə vizual tətik var və ondan sonra müəyyən fikir formalaşır. Deməli, oxucu hələ süjetin özü ilə tanış olmamışdan əvvəl, 1418 rəqəmi onda şüuraltı narahatlıq hissi oyatmağa başlayır. 1418 rəqəmi fərqli formalarda dərk edilə bilər. Bu tarixin ağılda doğurduğu ilk informasiya müharibə ildir. Poema polifonik əsərdir, yəni eyni mövzu müxtəlif fraqmentlərlə ifadə olunur. Məhz bu assosiasiyalardan əsərin mövzusu və motivləri müəyyən edilir. Şair ümumiləşdirilmiş obrazlar, təxəyyülünə əsasən yaratdığı fraqmentlər vasitəsi ilə müharibə dövrünün ümumi psixologiyası haqqında düşüncələrini əks etdirir. Poemada müharibənin dəhşətli səhnələri, qələbəyə doğru gedilən mübarizə yolu müxtəlif lövhələr, poetik detallarla canlandırılır. "Birinci gün" fəslində ilk sətirlərdən şair bir gün içərisində müharibənin səbəb olduğu ağır mənzərəni yaradır:

*Körpə ağladı,*
*sərhəd boynundakı*
*atasının ölümündən xəbərsiz.*
*Körpənin yaşı*
*qırx bir dəqiqə.*
*Başlandı müharibə –*
*amansız həqiqət.*
*Bu gündən başladı yaşın,*
*fəlakətli günlərin,*
*körpə vətəndaşı!*
*Tarix yazılacaq*
*bu günün qan çilənmiş səhifələrinə.* [6, s.38]

Bir tərəfdə düşmən gülləsi ilə həyatını itirən döyüşçünün ölümü, digər tərəfdə atasının ölümündən xəbərsiz həyata qədəm qoyan körpənin doğulması fraqmentləri ilə şairin xatirələrində iz buraxan acı günlərə səfəri başlayır. Müxtəlif fəsillərdə misradan-misraya ön cəbhədə xidmət edən əsgərlərin mübarizəsi, arxa cəbhədə insanların birliyi, səfərbərliyi əks olunur. Bədii təsvir vasitələri, istifadə edilən digər detallar hadisələrin mahiyyətinin, müharibənin törətdiyi faciələrlə bağlı şairin

düşüncələrinin açılmasına bilavasitə xidmət edir. Tənha bir buruqda kədərli ananın oğlu ilə məktublaşması, Buhenvald ölüm düşərgəsinin təsviri, itə atılacaq uşağın gözlərindəki ölüm qorxusu, corab toxuyan qızla dialoq və bu kimi bir çox detallar hadisələrin təfərrüatını genişləndirir. Şair müharibə dəhşətlərinin tək insanlara deyil, yer üzərində olan bütün canlı, cansız varlıqlara təsir etdiyini göstərir:

*Hər daşda, hər ağacda*
*hər dərədə,*
*hər düzəndə, yamacda*
*açılmış dərin yara.*
*Son gülləsini atmış*
*son süngüsünü parlatmış,*
*indi əbədi sükutda yatmış*
*dəngil-düngül sıralar.* [6, s.44]

Poemada istifadə edilən təsvir vasitələri əsərin bədii təsir gücünü artırır. Bitkin süjet xətti olmayan poemada canlandırılan lövhələr arasında əlaqə, poetik fikrin assosiativ prinsip üzrə ifadəsi müəllifin əsas qayəsini açır. Şairin ictimai-psixoloji görüşləri onun poemasının əsasını təşkil etməklə, assosiasiyalarının mənbəyi kimi çıxış edir.

### Nəticə / *Conclusion*

Nəticə olaraq qeyd edə bilərik ki, assosiativ prinsip montaj və redaktə üsullarından istifadə etməklə poetik təcrübəni struktura salan vasitədir. Bu üsul şairlərə assosiasiyalara, detallara, paralelliklərə müraciət edərək fikirlərini daha dolğun şəkildə ifadə etməyə kömək edir. Araşdırma zamanı müəyyən olunur ki, assosiativ poemalarda canlandırılan təsvirlərə şairlərin emosiyalarını, ideya və mövqeyini ifadə etmək üçün obrazlardan, hadisələrdən istifadə edən bir üsul, metonimik yerdəyişmə tətbiq etməklə poetik təcrübəni ümumiləşdirən forma kimi yanaşılır. Təsvirlərin əksəriyyətində poetik "mən" özünün daxili vəziyyətini əks etdirmir. Onun təsvirləri istər hadisələri, istərsə də obrazları əhatə edən dəqiq, faktiki izahatlar kimi görünür. Şairlər subyektiv təcrübəni obyektivləşdirmək, hissləri hadisəyə çevirməklə oxucunu düşünməyə vadar edir.

### Ədəbiyyat / *References*

1. Alışanov Şirindil. Ədəbi-bədii düşüncənin sərhədləri. – Bakı: Sabah, 2010.
2. Fikrət Qoca. Seçilmiş əsərləri. Doqquz cilddə, VI cild. – Bakı: UniPrint, 2015.
3. Fikrət Qoca. Ulduzlu düşüncələr (şeirlər və poemalar). – Bakı: Yazıçı, 1978.
4. Fikrət Sadıq. Taleyin acığına. – Bakı: Çinar-Çap müəssisəsi, 2003.
5. Musa Yaqub. Dövrün dəyirmanı (poemalar, şeirlər). – Bakı: CBS, 2012.
6. Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə, IV cild. – Bakı: Öndər nəşriyyat, 2005.
7. Выготский Лев. Психология искусства. – Москва: Искусство, 1968.
8. Герберт Спенсер, Теодор Циген. Ассоциативная психология. – Москва: АСТ-ЛТД, 1998.
9. Каганович Лазарь. Технология обучения анализу поэтического текста: методическое пособие для учителей-словесников. – Великий Новгород, 2001.
10. Карпенко Светлана. К вопросу о типах ассоциативных доминант в лексической структуре поэтического текста (на материале лирики Н.С.Гумилева). Вестник Томского государственного педагогического университета, 4, 2009.
11. https://www.dissercat.com/content/literaturnye-assotsiatsii-v-pozdnei-lirike-akhmatovoi

# Функция и способы выражения ассоциативной поэмы в азербайджанской литературе

**Айтадж Насирзаде**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: ismayilliaytac94@gmail.com

**Резюме.** В статье рассматривается один из новых видов лирического жанра – ассоциативная поэма. Если рассмотреть путь развития жанра поэмы, то станет ясно, что в связи с общественно-политическими событиями 60-70-х годов узость жанровой проблематики устраняется, и обращаются к новым темам. Наблюдаются изменения и в форме жанра поэмы. В поэмах возрождается лирически-обобщенный взгляд на мир. Расширяются полифонические возможности жанра поэмы, и лирические поэма получает господствующее значение. Кроме форм лирической поэмы, используемых в предыдущие исторические периоды, – поэма-обращение, поэма-монолог, поэма-диалог, ассоциативная поэма обретает актуальность. Ассоциативная поэма является одним из видов лирической поэмы, к которому обращаются поэты. Для определения специфических особенностей ассоциативной поэмы в статью включены следующие произведения: «Белая тропа» Фикрета Садыка, «По строке из каждой буквы» Мусы Якуба, «Звёздные мысли», «Пейзажи из моих мыслей» Фикрета Годжи, «Тысяча четыреста восемнадцать» Расула Рзы. В поэме Фикрета Садыка «Белая тропа» фрагменты из трагических дней военных лет вызывают ассоциации в воспоминаниях лирического героя. В поэме Мусы Якуба «По строке из каждой буквы» размышления поэта о трагедиях войны выражены через письма героя. В поэмах «Звёздные мысли» и «Пейзажи из моих мыслей» Фикрет Годжа через ассоциации оживляет события, происходящие в мире, а также на родине, свои противоречивые представления о времени и человеке. В поэме «Тысяча четыреста восемнадцать» поэт выражает свои размышления о происходящих событиях, систематизируя и объединяя воедино страшные фрагменты, кадры и подробности войны. На основе произведений определяется, что в этом типе поэмы поэты прибегают к приёму соединения образов разновременных в пространстве и времени событий. В ходе исследования автор статьи приходит к выводу, что воспоминания, ассоциации и использование монтажа играют роль основных литературно-художественных средств, определяющих развитие сюжета в этом типе поэмы.
**Ключевые слова:** лирическая поэма, ассоциация, воспоминание, мысль, лирический герой